# AZƏRBAYCAN VƏ TÜRKİYƏ ARASINDA İQTİSADİ ƏMƏKDAŞLIĞIN YENİ MƏRHƏLƏSİ

Aminə BAYRAMOVA,
İqtisadi İslahatların Təhlili və
Kommunikasiya Mərkəzi,
Səmərəliliyin qiymətləndirilməsi
departamentinin analitiki

# Azərbaycan və Türkiyə arasında iqtisadi əməkdaşlığın yeni mərhələsi

Aminə BAYRAMOVA,
İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi,
Səmərəliliyin qiymətləndirilməsi departamentinin analitiki

## 1. GİRİŞ

Azərbaycan-Türkiyə iqtisadi əlaqələri Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin iki ölkə arasındakı münasibətlərə yüksək qiymət verərək müəyyənləşdirdiyi, Prezident İlham Əliyevin uğurla davam etdirdiyi "bir millət, iki dövlət" siyasətinə, tarixi-mədəni qardaşlıq prinsipinə və strateji tərəfdaşlığa söykənir. Türkiyə Respublikası ilə iqtisadi əlaqələrimiz dərin tarixi köklərə dayansa da bu münasibətlərin geniş vüsət alması müstəqilliyimizin qazanılmasından sonrakı dövrə təsadüf edir. Dövlət başçılarımızın səmimi dostluq münasibətləri, onların Azərbaycan-Türkiyə əməkdaşlığının genişləndirilməsi istiqamətində verdikləri tapşırıqları iqtisadi münasibətlərimizin dərinləşdirilməsini şərtləndirən əsas amillərdir. Ticarət əlaqələri, qarşılıqlı investisiya qoyuluşları, regional meqa layihələr və quruculuq-bərpa işlərindəki əməkdaşlıq Azərbaycan-Türkiyə iqtisadi münasibətlərində əsas istiqamətlərdəndir.

## 2. TİCARƏT ƏLAQƏLƏRİ

Türkiyə əhəmiyyətli ticarət tərəfdaşı kimi Azərbaycanın xarici ticarət dövriyyəsində və ixracında 2015-ci ildən, idxal əməliyyatlarında isə 2013-cü ildən etibarən 2-ci yerdədir. Azərbaycanın mal idxalında Türkiyənin payı 2008-2020-ci illərdə 11,3%-15,8% arasında dəyişib. 2020-ci ildə analoji göstərici 1,56 milyard ABŞ dolları olmaqla 14,6% təşkil edib. Türkiyədən idxalda əmtəə çeşidliliyi aydın müşahidə olunur. 2019-cu ildə Türkiyədən idxal olunan mal kateqoriyalarında əsas yeri 15%-lə maşın və mexaniki alətlər (251 milyon dollar), dəmir və polad (7%, 120 milyon dollar), dəmiryol və tramvay istisna olmaqla nəqliyyat vasitələri (7%, 118 milyon dollar), elektrik avadanlıqları (7%, 116 milyon dollar) tutub.

**Cədvəl: Azərbaycanın Türkiyə ilə Ticarət Dövriyyəsinin Strukturu**

| İl | İdxal | İxrac |
|---|---|---|
| **2008** | 56% | 44% |
| **2009** | 89% | 11% |
| **2010** | 82% | 18% |
| **2011** | 74% | 26% |
| **2012** | 72% | 28% |
| **2013** | 74% | 26% |
| **2014** | 72% | 28% |
| **2015** | 44% | 56% |
| **2016** | 50% | 50% |
| **2017** | 48% | 52% |
| **2018** | 46% | 54% |
| **2019** | 37% | 63% |
| **2020** | 38% | 63% |

*Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, Dövlət Gömrük Komitəsi*

Azərbaycanın mal ixracında Türkiyənin payı 2008-2020-ci illərdə 0,7%-18,9% arasında dəyişməklə, ötən ildə 2,6 milyard ABŞ dolları təşkil edib. Türkiyəyə ümumi ixracda əsas yeri neft-qaz əmtəə kateqoriyası tutur. Bu göstərici 2019-cu ildə 2,5 milyard dollar olmaqla müvafiq dövr üzrə Türkiyəyə mal ixracının 88%-ni təşkil edib. Türkiyəyə ixracda neft-qaz sektorunun payının kəskin artımı 2015-ci ildən müşahidə edilməyə başlayıb (2014-cü il 56%, 2015-ci il 90%).Məhz bu ildən etibarən idxal-ixrac balansı Azərbaycanın xeyrinə dəyişib. 2015-ci ildə Azərbaycanın Türkiyəyə neft-qaz ixracı 1,3 milyard dollar təşkil edib ki, bu da 2014-cü illə müqayisədə 4,72 dəfə çoxdur.

Qeyri-neft sektorunda isə 2019-cu ildə əsas mal kateqoriyalarını pambıq, plastik və polimerlər, alüminium və məmulatları təşkil edib.

Azərbaycanın ümumi ticarət dövriyyəsində Türkiyənin payı son illərdə getdikcə artır. Belə ki, 2012-2014-cü illər arasında bu göstərici sabit olaraq 6% təşkil edib, 2015-ci ildə isə 12%-ə yüksəlib. 2019-cu ildə Türkiyə Azərbaycanın ümumi xarici ticarət dövriyyəsində 4,5 milyard dollar təşkil etməklə 14% yer tutub. İqtisadi əlaqələrimizin dayanıqlı olması nəticəsində yüksələn trayektoriya üzrə inkişaf edən qarşılıqlı idxal-ixrac əməliyyatlarının həcminə pandemiyanın yaratdığı gərginliklər ciddi təsir göstərməyib. Belə ki, 2020-ci ildə iki ölkə arasında ticarət həcmi 4,16 milyard dollar, Türkiyənin Azərbaycanın ümumi xarici ticarət dövriyyəsindəki payı 17% təşkil edib. 2020-ci ildə hər iki ölkə liderlərinin Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının VIII iclasındakı çıxışında qarşılıqlı ticarət dövriyyəsinin 2023-cü ilə qədər 15 milyard dollara çatdırılmasının hədəfləndiyi qeyd edilib [1]. Bu hədəfə nail olmaq üçün davamlı kompleks tədbirlər həyata keçirilir. Bu tədbirlərdən biri kimi 1 mart tarixindən qüvvəyə minən Preferensial Ticarət sazişi hər bir ölkə üzrə 15 adda məhsul üzrə tarifləri azaldacaq, qeyri-tarif maneələrin aradan qaldırılmasında isə mühüm əhəmiyyət kəsb edəcək. Habelə ticarətin genişləndirilməsi, ixracın təşviqi istiqamətində imzalanan digər iqtisadi sənədlər və əldə edilən razılaşmalar fonunda 2019-cu ildə müəyyənləşdirilmiş 15 milyard dollar ticarət dövriyyəsi hədəfinə daha da yaxınlaşılacaq. Azərbaycanın İstanbulda ticarət nümayəndəliyinin təsis edilməsi [2] bu işlərin daha səmərəli və çevik həyata keçirilməsini təmin edəcək.

Azərbaycan və Türkiyə arasında vizasız və xarici pasportsuz səyahətlər post-pandemiya dövründə normallaşma şəraitində qarşılıqlı vətəndaş səfərlərini artıracaq, həm sahibkarlıq, həm də turizm sahələrində ciddi irəliləyişlərə gətirib çıxaracaq [2]. Səfərlərin artması ölkələr arasında əməkdaşlığın bütün sahələrdə inkişafına yeni təkan verəcək, ticarət dövriyyəsinin, sərmayə qoyuluşlarının, turist axınının artmasına müsbət təsir edəcək, xalqlarımızı bir-birinə daha yaxınlaşdıracaq.

Görülən tədbirlər nəticəsində pandemiyanın təsirləri səngidikdən sonra qarşılıqlı ticarət dövriyyəsi sürətlə yüksələcək və dövlət başçıları tərəfindən qoyulan ticarət dövriyyəsi hədəfinə çatmaq üçün sıx əməkdaşlıq davam etdiriləcək. Ticarətin stimullaşdırılması iqtisadi əlaqələrin inkişafını və ədalətli rəqabət üçün əlverişli mühitin yaradılmasını təmin etməklə, hər iki ölkəyə investisiya qoyuluşlarını da artıracaq.

## 3. QARŞILIQLI İNVESTİSİYA QOYULUŞU

Ölkələrimiz arasında uğurlu investisiya əməkdaşlığı həyata keçirilir. Hazırda Türkiyə Azərbaycanda daha çox qeyri-neft sektoruna, Azərbaycan isə Türkiyədə, əsasən, energetika və kimya sahələrinə kapital axını yaradır. Türkiyədən Azərbaycana investisiya qoyuluşları 12 milyard dollar, Azərbaycandan Türkiyəyə sərmayə yatırımları isə 19,5 milyard dollar təşkil edir. 2020-ci il Azərbaycan iqtisadiyyatına cəlb olunan birbaşa xarici investisiya (BXİ) həcminə görə, Türkiyə 578 milyon dollar investisiya məbləği və 12,8% xüsusi çəki ilə Birləşmiş Krallıqdan sonra 2-ci yerdə qərarlaşıb. Türkiyə 2020-ci ildə Azərbaycanın ən çox investisiya yatırdığı ölkə olub. Müvafiq dövrdə Azərbaycan Türkiyə iqtisadiyyatına 334 milyon dollar investisiya yatırıb ki, bu ölkəmiz tərəfindən yönəldilmiş ümumi birbaşa xarici investisiyalarda 6% pay dəmək olub [3].

Hazırda Türkiyədə 2000-ə yaxın Azərbaycan, ölkəmizdə isə 4100-dən artıq Türkiyə şirkəti fəaliyyət göstərir. Türkiyə şirkətləri Azərbaycanın dövlət büdcəsi hesabına həyata keçirilən ümumi dəyəri 16 milyard dollar olan 320-ə qədər layihədə podratçı qismində iştirak edib [2]. İnvestisiya əlaqələrinin dərinləşdirilməsi üçün enerji, nəqliyyat, kənd təsərrüfatı, qida istehsalı, sənaye, təhsil, turizm, İKT, maliyyə və digər sahələrdə geniş əməkdaşlıq imkanları mövcuddur.

Yaradılan əlverişli işgüzar şərait və qardaşlıq münasibətləri nəticəsində Azərbaycan Türkiyədəki həm şirkət sayı, həm də investisiya həcminə görə, Mərkəzi Asiya və Qafqaz ölkələri arasında ilk yerdədir. Azərbaycanın qardaş ölkənin energetika, neft-kimya, kommunikasiya, daşınmaz əmlak sektorlarına yönəltdiyi investisiya Türkiyənin və regionun enerji

təhlükəsizliyinin təminatında, ətraf mühitin qorunmasında, əhalinin rifah səviyyəsinin yüksəldilməsində mühüm əhəmiyyətə malikdir. Azərbaycanın Türkiyəyə yönəltdiyi ən böyük birbaşa xarici investisiya "SOCAR Türkiyə"nin icra etdiyi layihələrlə bağlıdır. "Socar Türkiyə"nin 51% paya malik olduğu PETKİM sayəsində hazırda Türkiyənin neft-kimya xammalı ehtiyacının 18%-i qarşılanır. 2019-cu ildə 6,3 milyard dollar investisiya məbləği ilə İzmirin Aliağa limanında fəaliyyətə başlayan STAR neftayırma zavodu hazırda Türkiyənin ilkin emal olunan neftə tələbatın 25%-ni ödəyir [4]. Bu neftayırma zavodu, Türkiyənin enerji kəsrinin ən mühüm komponenti olan mayeləşdirilmiş neft qazı, təyyarə yanacağı istehsal etməklə, Türkiyə büdcəsinə illik təxmini 1,5 milyard dollar qənaəti təmin edir [5]. Azərbaycan Türkiyənin alternativ enerji sektoruna investisiyası kimi Petkim Külək Enerjisi Stansiyası (Petkim RES) enerji xərclərinə qənaəti və ətraf mühitin qorunmasını təmin edir. Azərbaycan Türkiyədə energetika, kimya sahəsində istehsal və emal sahələrindən başqa, enerjinin paylanması, daşınması sistemlərinin inkişafına istiqamətlənmiş investisiya qoyuluşu edir.

Türk şirkətlərinin Azərbaycanda əsas fəaliyyət sahələri inşaat, informasiya-rabitə, maliyyə və sığorta, qida istehsalı, nəqliyyat, tekstil sektorlarıdır [6]. Türkiyə mənşəli investisiyalara qeyri-neft sektorunda Azərbaycan Sənaye Bankı, Ziraat Bank Azərbaycan, Azər-Türk Bankı, neft-qaz sektorunda isə Azəri-Çıraq-Günəşli, Şahdəniz, Kürdaşı və Alov kimi layihələrdə sərmayədarlığı və tərəfdaşlığı misal göstərilə bilər.

Dövlət başçılarının tapşırıqları əsasında görülən tədbirlər, biznes forumların, ticarət missiyalarının, sərgilərin təşkili, eləcə də AZPROMO və KOBİA ilə Türkiyənin DEİK, KOSGEB və digər aidiyyəti qurumları arasında əməkdaşlıq ticarət dövriyyəsinin və qarşılıqlı investisiya qoyuluşunun artmasına böyük töhfə verir.

İki ölkə arasında birgə investisiya fondunun təsis edilməsi, dövlət-özəl tərəfdaşlığı çərçivəsində həyata keçirilə bilən birgə texnologiyanın transferini və istehsalın lokalizasiyasını nəzərdə tutan iri müəssisə və layihələrin reallaşması investisiya hədəflərinə çatılmasını və imkanların maksimal dəyərləndirilməsi istiqamətində qarşıda duran vəzifələrin icrasını sürətləndirəcək.

Kiçik və orta sahibkarlığa istiqamətləndirilmiş investisiyalara dəstək, ortaq fəaliyyətin təşkili, qarşılıqlı iş səyahətləri çərçivəsində kommunikasiya və təcrübə paylaşımının genişləndirilməsi, habelə qadın sahibkarlığın inkişafı üçün strateji birgə iş Türkiyə və Azərbaycan şirkətlərinin əməkdaşlığını gücləndirəcək, qarşılıqlı investisiya qoyuluşlarını artıracaq.

Bütün bu istiqamətlərlə yanaşı, dövlət mülkiyyətinin özəlləşdirilməsində türk şirkətlərinin fəal iştirakı investisiya əlaqələrinin güclənməsinə öz töhfəsini verir ki, buna misal olaraq "Azərlotereya" ASC göstərilə bilər. Yaradılan yeni əməkdaşlıq platforması Azərbaycanda oyun sənayesinin inkişafına, yeni investisiyanın cəlb edilməsinə və büdcə gəlirlərinin artmasına əlavə imkan yaradacaq.

## 4. NƏQLİYYAT-LOGİSTİKA ƏLAQƏLƏRİ

Azərbaycan və Türkiyə arasındakı iqtisadi əlaqələr həm də çoxtərəfli strateji əhəmiyyətli enerji-nəqliyyat qovşaqlarını nəzərdə tutan meqa layihələrdə əməkdaşlığı əhatə edir. Bu layihələr 1994-cü ildə "Əsrin Müqaviləsi" ilə qəbul edilən neft axtarış-kəşfiyyat işləri ilə başlayıb, sonrakı illərdə isə genişlənib. Azərbaycan və Türkiyənin də tərəfdaş olduğu nəhəng regional layihələrə Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Bakı-Tbilisi-Qars, TANAP və TAP misal göstərilə bilər.

2005-ci ildə açılışı edilən Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac boru kəməri beynəlxalq enerji dəhlizlərinə çıxışda və Qərb ölkələrinin eneji təhlükəsizliyində Azərbaycan və Türkiyənin əhəmiyyətini artırır. BTC tranzit keçid rüsumları, neftin satışı və saxlanmasından əldə edilən gəlirlə yanaşı, layihənin həyata keçirilməsində iştirak edən milli korporasiyaların inkişafını təmin etməklə, hər iki dövlətin ümummilli məhsul həcmində artım yaradır. Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri həmçinin Qara dənizdə mövcud boğazların

həddən artıq yüklənməsinin də qarşısını alır, şərqdən gələn neftin daşınma yükünü Ceyhan limanı ilə paylaşmaqla Dardanel və Bosfor boğazlarındakı ekoloji gərginliyi azaldır [7].

2007-ci ildə istifadəyə verilən Bakı-Tbilisi-Ərzurum boru kəməri (BTƏ) Azərbaycan qazının Gürcüstan, Türkiyə və Yunanıstana ixracının həyata keçirilməsini təmin edir. Bu boru xəttinin Türkiyə ərazisində çoxşaxəli boru sistemilə dəstəklənməsi Türkiyənin qaz istehlakının və enerji təhlükəsizliyinin təminatına şərait yaradır. Bu kəmər Türkiyənin şərq regionlarının inkişafında, buraya investisiya axınında və məşğulluğun təminatında mühüm rol oynayır.




*Mənbə: https://minenergy.gov.az/az/layiheler/cenub-qaz-dehlizi_2196, giriş tarixi: 12.07.2021*

Cənub-Qaz Dəhlizi, TANAP və TAP layihələri Cənubi Qafqazı, Anadolunu və Cənubi-Avropanı əhatə edən əhəmiyyətli şərq-qərb qaz nəqli xətti şəbəkəsidir. Layihənin ilkin fazası 2014, ikinci fazası 2018, üçüncü mərhələsi isə 2020-ci ildə həyata keçirilib.

2017-ci ildən istismarda olan Bakı-Tbilisi-Qars dəmiryolu xətti Azərbaycan ilə Türkiyənin, daha geniş miqyasda isə Avropa və Asiyanın birləşdirilməsini nəzərdə tutan layihədir. Layihə sərnişin və yük daşınmasının marağında olan İpək yolu üzərində yerləşən ölkələr üçün, nəqliyyat və daşınma xərclərinin və müddətinin aşağı salınması, eləcə də iqtisadi ticarət əlaqələrinin miqyasının artırılması baxımından önəm daşıyır.

Həyata keçirilən uğurlu transmilli layihələr nəticəsində Azərbaycan və Türkiyə regionda enerji körpüsü rolunu oynayır. Bu beynəlxalq nəqliyyat və enerji layihələri regionda iqtisadi inteqrasiyanın güclənməsi, beynəlxalq daşınmalarda məsafə və daşınma müddətinin qısaldılmasında, regional enerji təhlükəsizliyinin təminatında, ölkələrin tranzit və ticarət əməliyyatlarından gəlirlərinin artımında, məşğulluğun həllində və əhalinin rifahının yüksəldilməsində mühüm rol oynayır.

İqtisadi əlaqələrin digər önəmli sahəsi kimi nəqliyyat-logistika qovşaqlarının şaxələnməsi ölkəmiz və qardaş respublikanın iqtisadi inkişafı ilə yanaşı regionda sülhün və rifahın bərqərar olmasını təmin edir. Türk mallarının Çin və Rusiyaya sürətli və sərfəli daşınmasına şərait yaradan Bakı-Tbilisi-Qars dəmiryolu üzərində 2020-ci ildə 15 min konteyner daşınıb. Bir öncəki illə müqayisədə 2020-ci ildə Bakı-Tbilisi-Qars dəmiryolu üzərində daşınan yüklərin həcminin iki dəfədən çox, Türkiyə-Orta Asiya-Çin marşrutu və əks istiqamətdə hərəkət edən tırların sayının 74,4% artması [2] nəqliyyat kommunikasiya istiqamətində keçirilən birgə layihələrin səmərəliliyinin bariz nümunəsidir. Pandemiyanın yaratdığı gərginliyə baxmayaraq bu göstəriciyə çatmaqda həm bölgədə olan imkanlar, həmçinin Azərbaycan tərəfdən Türkiyəyə verilən təşviqlər və güzəştlər rol oynayıb. Azərbaycan tərəfindən ikiqat vergitutmanın aradan qaldırılması ilə bağlı Türkiyəyə təklif edilən razılaşma layihəsinin qəbulu ilə iki ölkə arasında həm ticarət, həm də nəqliyyat-logistika əlaqələri güclənəcək.

Bütün bu gerçəkləşdirilən layihələrlə yanaşı Türkiyə və Azərbaycanın regional əhəmiyyətli nəqliyyat-logistika sahəsində strateji əməkdaşlığı üçün böyük potensial var. Hər iki ölkənin əlverişli coğrafi mövqedə yerləşməsi və yaxın dostluq əlaqələri ilə yanaşı torpaqlarımızın işğaldan azad edilməsi bölgədə kommunikasiya-tranzit əlaqələrinin inkişafı üçün yeni imkanları gündəmə gətirir.

Zəngəzur dəhlizinin açılması, tarixi Ələt-Culfa dəmiryolu xəttinin bərpası, bu dəmiryolunun Azərbaycan və Türkiyə arasında imzalanan memorandumda [8] nəzərdə tutulan Qars-İğdır-Culfa dəmir yolu xəttinə inteqrasiyası vahid nəqliyyat-logistika şəbəkəsinin yaradılmasına imkan yaradacaq. Türkiyə ilə Azərbaycanın dəmiryolu və avtomobil yolu ilə bağlanması nəticəsində, iki ölkə arasında idxal-ixrac, habelə tranzit əməliyyatları zamanı nəqliyyat və daşınma xərcləri və müddəti azalacaq, eləcə də iqtisadi ticarət əlaqələrin miqyası artacaq, habelə xarici ticarət dövriyyəsi hədəfinə nail olunmasını sürətləndirəcək. Bu nəhəng layihə ilə Azərbaycan və Türkiyə Avropa və Asiya arasında fasiləsiz daşınmaların həyata keçirilməsinin əsas tərəfdaşları olacaq ki, bu da hər iki ölkəyə investisiya qoyuluşlarını artıracaq. Həmçinin, Azərbaycanın bölgədə təklif etdiyi yeni "3+3" formatlı işbirliyi platforması da ölkələr arasında ikitərəfli ticarət əlaqələrinin, habelə Naxçıvanın strateji önəminin artmasına təkan verəcək. Belə ki, yeni tikiləcək Zəngəzur dəhlizi Türkiyə ilə Azərbaycan arasında ikitərəfli ticarət əlaqələrinin daha sürətli inkişafına imkan yaradacaq, həmçinin turist əlaqələrinin inkişafına ciddi təkan verəcək, bölgədə sülhün və təhlükəsizliyin təminatında əsas vasitələrdən biri olacaq, bütün region dövlətlərinə, xalqların maraqlarına cavab verəcək, onlara iqtisadi fayda gətirəcək.

## 5.QURUCULUQ VƏ REİNTEQRASİYADA ƏMƏKDAŞLIQ

İşğaldan azad edilmiş torpaqlarımızın iqtisadi reinteqrasiyası və reabilitasiyasında, habelə bütün bölgədəki konyunktura dəyişikliyinin bərabərində gətirdiyi perspektivlərdən yararlanılmasında Türkiyə ilə yaxın əməkdaşlıq iqtisadi əlaqələrimizin yeni sahəsini formalaşdırır. 2016-cı il aprel döyüşlərində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi və Azərbaycan Ordusunun uğurlu əməliyyatları nəticəsində işğaldan azad olunmuş Cocuq Mərcanlı kəndində kiçik sahibkarlığın dəstəklənməsi və məşğulluğun təmin edilməsi məqsədilə Türkiyənin dəstəyi ilə həyata keçirilən layihələr [9], [10] əməkdaşlığımıza yaxşı nümunədir. Ölkə rəhbərləri bu təcrübədən "Qarabağa böyük qayıdış"da istifadə etmək və bu istiqamətdə əməkdaşlıq sahələrini genişləndirmək üçün böyük səy göstərir. Hazırda Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında infrastrukturun qurulmasında, Füzuli-Şuşa arasındakı Zəfər yolu, Toğana-Kəlbəcər yolu kimi layihələrin, habelə Füzuli hava limanının tikintisində türk şirkətləri fəal iştirak edir. Bununla yanaşı, işğaldan azad olunmuş ərazilərimizdə turizm, kənd təsərrüfatı, dağ-mədən və hasilat sənayesi, tikinti materialları istehsalı, alternativ enerji kimi potensial sektorların yenidən canlandırılması və ölkə iqtisadiyyatına inteqrasiyası, habelə bölgədə yeni nəqliyyat-logistika dəhlizlərinin formalaşdırılması istiqamətində həyata keçiriləcək tədbirlər Türkiyə ilə əlaqələrimizin genişləndirilməsində yeni perspektivlər vəd edir. Azərbaycanda həyata keçirilən quruculuq işləri ilə yanaşı sosial-iqtisadi inkişafa dair Milli Prioritetlərin [11] qəbul edilməsi türk investorlar üçün geniş imkanlar yaradır.

Qədim mədəniyyət beşiyi olan Şuşa şəhərində 15 iyun 2021-ci il tarixində imzalanan "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi" [12] iqtisadi, siyasi, mədəni və digər sahələrdə əməkdaşlıq üçün potensialların birləşdirilməsinə zəmin yaradacaq. Bu müqavilə Azərbaycan və Türkiyənin hərtərəfli əlaqələrinin gücləndirilməsi ilə yanaşı, türk dünyasının davamlı inkişafına, regional və qlobal sülhün və təhlükəsizliyin, müdafiə sənayesinin və texnologiya mübadiləsinin möhkəmlənməsinə, iqtisadi münasibətlərin və nəqliyyat-logistika əlaqələrinin diversifikasiyasına təkan verəcək.

## 6. YEKUN

Azərbaycan və Türkiyə arasındakı tarixi-mədəni yaxınlığa və qarşılıqlı strateji tərəfdaşlığa əsaslanan sıx ikitərəfli və çoxtərəfli iqtisadi münasibətlər həm Türkiyə və Azərbaycanın ölkə,

həm də region miqyasında nüfuzunun və iqtisadi gücünün artımında əhəmiyyətli rol oynayır. Azərbaycan və Türkiyə əməkdaşlığının böyük inkişaf potensialı vardır. Hər iki ölkə liderləri mövcud iqtisadi əlaqələrin inkişafı üçün böyük səy göstərir. Mövcud potensial üzrə işlərin sürətləndirilməsi hər iki ölkədə əhalinin rifah halının yüksəldilməsi, rəqabət sisteminin inkişafı, işsizliyin həlli, enerji təhlükəsizliyinin təminatı və ölkələrin makroiqtisadi dayanıqlılığı kimi məsələlərdə böyük səmərə qazandıracaq. Bütün bu imkanlar fonunda iki ölkə şirkətlərinin əməkdaşlığının təşviqi, birgə istehsal müəssisələrinin təşkili, nəqliyyat-logistik, həmçinin əlverişli coğrafi mövqe üstünlüklərdən səmərəli istifadə, hərtərəfli əməkdaşlıq müqavilələri, təcrübə mübadilələri, nəqliyyat-logistika, həmçinin əlverişli coğrafi mövqe üstünlüklərindən istifadə ölkələrimizin qarşılıqlı ticarəti, investisiya qoyuluşlarını artıracaq, bölgədə nəqliyyat-kommunikasiya əlaqələrini gücləndirəcək, işğaldan azad edilmiş torpaqlarımızın bərpasında və inkişafında səmərəliliyi artıracaq.

## ƏDƏBİYYAT SİYAHISI

1. "Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının VIII iclası keçirilib"
https://president.az/articles/35961; giriş tarixi: 12.07.2021

2. Türkiye – Azerbaycan İş Forumu 18 Şubat 2021, Ankara
https://www.youtube.com/watch?v=iH0ZOLqsiJ0&t=2959s ; giriş tarixi: 12.07.2021

3. Azərbaycan Respublikasının Mərkəzi Bankı, Xarici sektorun statistikası
https://www.cbar.az/page-43/external-sector-statistics; giriş tarixi: 12.07.2021

4. "SOCAR Türkiye Şirket Profili Raporu 2019"
http://www.socar.com.tr/docs/default-source/investor-relations/socar-t%C3%BCrkiye-%C5%9Firket-profili-2019.pdf?sfvrsn=ddba9060_18

5. "Büyüyen Türkiye'nin yıldızı STAR Rafineri"
http://www.socar.com.tr/star-rafineri.html; giriş tarixi: 12.07.2021

6. E.Süleymanov, O.N. Aras – "Azərbaycan iqtisadiyyatı ", "Şərq-Qərb" Mətbəəsi: Bakı, 2016: 369

7. Starr, Frederick, and Svante Cornell. The Baku-Tbilisi-Ceyhan pipeline: oil window to the West. Central Asia-Caucasus Institute & Silk Road Studies Program, 2005

8. "Azərbaycan-Türkiyə sənədləri imzalanıb"
https://president.az/articles/35963; giriş tarixi: 12.07.2021

9. "Cocuq Mərcanlı: işğaldan azad olunmuş qəsəbədə ilk dərs günü"
http://idp.gov.az/az/news/580; giriş tarixi: 12.07.2021

10. "Türkiyə və Azərbaycan İş Adamları və Sənayeçilər İctimai Birliyi Cocuq Mərcanlı ilə bağlı layihə həyata keçirəcək"
http://idp.gov.az/az/news/572; giriş tarixi: 12.07.2021

11. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"
https://president.az/articles/50474; giriş tarixi: 12.07.2021

12. "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi"
https://president.az/articles/52122; giriş tarixi: 12.07.2021